*Dünyanın ən gözəl sözləri ana haqqında deyilən sözlərdir...*
*Dünyanın ən gözəl şeirləri qadınlara yazılan şeirlərdir.*
*Amma qadın təkcə gözəllik və ilham mənbəyi deyil, həm də ədalət, birlik, bərabərlik, tərəqqi rəmzidir.*
*Dünyada qadına məhəbbətin və hörmətin ən böyük örnəyi türklərə məxsusdur. Bizim ulu nənələrimiz ulu babalarımızla birlikdə at minmiş, qılınc çalmış, ev qurmuş, uşaq böyütmüş, yurd salmış, Vətən yaratmışlar.*



# 8 Martdan çox-çox əvvəl...

Nyu-Yorkdakı toxucu qadınların əmək hüquqlarını müdafiə mitinqindən, 1910-cu ildə sosial-demokrat Klara Setkinin əmək və sosial bərabərlik hərakatına başlamasından çox-çox əvvəl Azərbaycan türkünün qadına layiq olduğu hörmət və ehtiramı göstərmək ənənəsi formalaşmışdır.

Heç də təsadüfi deyildir ki, Şərqdə ilk demokratik respublika quran Azərbaycan xalqı kişilərlə bərabər qadınlara da seçib - seçilmək hüququ verən mütərəqqi dövlətlərdən biri kimi bəşər tarixinə öz şərəfli adını yazdırmışdır. Biz bu şanlı tariximizlə haqlı olaraq fəxr edirik və gözəl ənənələrimizi yaşatmaqdan qürur duymaqda haqlıyıq.

Müasir Azərbaycan dövlətinin banisi və qurucusu, ümummilli lider Heydər Əliyev qadının ailədə və cəmiyyətdə roluna böyük önəm verirdi. Məhz ulu öndərin fərman və sərəncamları ilə ölkəmizdə qadın və ailə hüquqlarının qorunması, inkişafı sahəsində müvafiq təsisatlar yaranmış, qanunlar, dövlət proqramları qəbul edilmişdir. Hazırda gender münasibətlərinin, yaradılmış hüquq və imkan bərabərliyinin səviyyəsinə görə, Azərbaycan dünyada öncül yerlərdən birini tutur.

Möhtərəm Prezidentimiz İlham Əliyevin siyasəti kursunda qadın və ailə siyasəti strateji istiqamətlərdən biridir.

Bu gün ölkəmizdə qadınlar təhsil, elm, səhiyyə, dövlət idarəçiliyi sahəsində mühüm vəzifələr tutur, qanunvericilik və məhkəmə hakimiyyətində uğurla təmsil olunurlar. Azərbaycan qadınının ailədə və cəmiyyətdə yerinin və nüfuzunun yüksəlməsində, şübhəsiz ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tarixi xidmətləri vardır. Bu gün Mehriban xanım Azərbaycanı dünyada ləyaqətlə təmsil edən uğur simvolu kimi qəbul olunur. O, sülh, tolerantlıq, tərəqqi, xoş məram elçisi kimi öz doğma xalqına, bəşəriyyətə yorulmadan xidmət edir və bundan şərəf duyur. Mehriban xanımın xalqa xidmət nümunəsi gənc qızlarımız və qadınlarımız üçün tarixi örnəkdir.

Azərbaycan qadınları hər cür sevgiyə, hörmətə, ehtirama layiqdir! Biz qadınlarımızı təkcə təqvim bayramı olan 8 Martda öymürük, ömür boyu sevirik. Sadəcə olaraq, bu gün sevgimizi, hörmət və ehtiramımızı ifadə etməkdə daha cəsarətliyik.

Fürsətdən istifadə edib bu əziz bayram münasibətilə bütün anaları, bacıları, qızlarımızı səmimi-qəlbdən təbrik edirəm!

***Musa URUD,***
***Milli Məclisin deputatı, şair***